# Şuşa həsrəti

*Rəssam Rövşən Bayramovun yurd sevgisi haqqında*



■ Ziyadxan Əliyev

Dünyanın mədəniyyət məkanında uzun illər ərzində "Qafqazın konservatoriyası" kimi tanınan Şuşamızın bütün mənalarda bənzərsiz olması həmişə bura gələn səyyah, diplomat və sənət adamlarının diqqət mərkəzində olmuşdur. Şəhərin özünəməxsus gözəlliyinə vurulanların sırasında rəssamlar da az olmayıb. Hələ XIX əsrdə Şuşanın mənzərəsini və buradan keçirilən mərasimləri öz əsərlərində əbədiləşdirən görkəmli rus rəssamı V.Vereşagindən başlayaraq qədim mədəniyyət beşiyinə üz tutan xarici və Azərbaycan rəssamlar (E.Avalov, A.Hüseynov, İ.İbrahimov, E.Hacızadə, N.Hüseynov, R.Bayramov, T.Seyidova, K.Kamal, Y.Səmədov və s.) burada gördükləri qibtəedici təbiət və memarlıq motivlərini bədiiləşdiriblər. Artıq tarixiləşdiyi birmənalı olan həmin rəngkarlıq və qrafika əsərləri bu gün düşmən işğalında olan qürur qaynağımızın tarixi görkəminin qoruyub saxlanılmasında rolunun əhəmiyyətli olması birmənalıdır. Şəhərin bədii salnaməsində şuşalı rəssam Rövşən Bayramovun xidmətləri əvəzsizdir. Belə ki, o, doğma yurda vurğunluğunu həm sovet dönəmində, həm də onun işğalından sonrakı dövrdə davamlı olaraq göstərməkdədir. Mübaliğəsiz olaraq onu Şuşaya ən çox əsər həsr etmiş rəssam hesab etmək olar...

Tanışlıq üçün deyək ki, Şuşada dünyaya göz açan (1953) və uşaqlıqdan ehatələndiyi gözəlliyin təsiri altında gördüklərini rənglər vasitəsilə ifadə etmək arzusu ilə doğma şəhərdə rəssamlığın ibtidai vərdişlərinə yiyələnmişdir. Daha sonra məşhur "Əzimzadə məktəbi"ndə ixtisas təhsili alan (1970-1974) Rövşən Bayramov, təyinatla Şuşa Mədəniyyət Evində tərtibatçı-rəssam vəzifəsində işləməyə başlamışdır. Buradakı bir-neçə illik fəaliyyəti onun Azərbaycan təsviri sənətinə sonsuz məhəbbətini hamıya hiss etdirmişdir. Odur ki, 1982-ci ildə onun Şuşa Dövlət Rəsm Qalereyasına direktoru vəzifəsinə təyin olunmasını yerli ictimaiyyət təbii qarşıladı.

O vaxtdan bu günə kimi bu vəzifədə çalışan Rövşən Bayramov özünü bacarıqlı təşkilatçı və təbliğatçı kimi göstərə bilmişdir. Təhsilsonrası müstəqil yaradıcılığını davam etdirən rəssam, yaratdığı rəngkarlıq və qrafika əsərləri ilə müxtəlif miqyaslı sərgilərin iştirakçısı olmuşdur. Çox vaxt Şuşa ünvanlı olan bu sənət əsərlərinin qədim yurdun təbliğində duyulası rolunun olması birmənalıdır.

Rəssam vətəndaşlığını və vətənpərvərliyini özündə yaşadan bu lövhələrin sənət xiridarları tərəfindən yüksək dəyərləndirilməsi və onun müxtəlif mükafatlara layiq görülməsi də onun yaradıcılığına diqqətin göstəricisi sayıla bilər. Rəssamın anadan olmasının 60 illiyi münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Fəxri mədəniyyət işçisi" fəxri adını almasını da ictimai-yaradıcı fəaliyyətinin qiymətləndirilməsinin ifadəsi hesab etmək olar. 1982-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Rövşənin yaradıcılığında müxtəlif mövzu və janrlar yer alsa da, davamlı olaraq sadiq qaldığı mövzu Şuşa və onun bənzərsiz memarlıq abidələridir...

Bu gün rəssamın doğma Şuşaya həsr etdiyi çoxsaylı əsərlərin təhlili qarşılığında, onlardakı gözəllik qaynaqlarının bolluğuna rəğmən, hər birimiz üçün qürur qaynağına çevrilən bu məkanın sözün əsl mənasında "açıq səma altında muzey" olduğunu söyləməyə əsasımız olduğunu görə bilərik. Lap Sankt-Peterburq (keçmiş Leninqrad şəhəri) kimi...

Doğrudan da, şəhərdəki 549 qədim tikili, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, 17 məhəllə bulağı və qala divarları, o cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və tanınmış şəxslərin evləri onları görənləri və gözəlliyə qiymət verənləri ilhamlandıra bilməsi yəqin ki, təbiidir. Bu mənada sadaladığımız nəhayətsiz dəyər daşıyıcılarının qonşuluğunda yaşayıb-yaradan Rövşən Bayramovun onlara heyranlıq nümayiş etdirməsini təbii saymaq olar. Onun bu gözəllik qaynaqlarından zövq almaqdan usanmaması da ilk növbədə Şuşa həsrətinə bələnmiş yaradıcının torpaq-yurd sevgisinin göstəricisidir.

Doğma yurda böyük yaradıcılıq arzuları ilə qayıdan rəssamın ilk əsərlərinin bilavasitə şəhərin tərtibatı ilə bağlı olması heç də təsadüfi deyildi. Belə ki, məhz ötən əsrin səksəninci illərində Şuşada duyulası quruculuq və abadlıq işlərinin aparılması ilə bağlı idi. 1982-ci ildə Şuşada görkəmli söz xiridarı M.P.Vaqifin türbəsinin açılışı ilə yanaşı, buradakı tarixi məkanlarla bağlı xeyli bərpa işləri aparılmışdı. R.Bayramov yerli həmkarları ilə birlikdə bu prosesdə xüsusi fəallıq göstərərək, "Xan qızı" bulağının yaxınlığındakı pannları, M.P.Vaqifin büstü ətrafındakı divar rəsmlərinin çəkilişini həyata keçirmişdi.

Onun Şuşa ünvanlı yaratdığı bədii salnamə kifayət qədər cəlbedici və duyğulandırıcıdır. Belə ki, mədəniyyət ocağının bütün mənalarda çiçəklənən illərinə, düşməndən müdafiəsinə şahidlik edən rəssam, onun məcburən tərk olunmasını yaşamış, işğal olunmuş mənzərələrinə foto şəkillərdən tamaşa etmişdi. Rəng və cizgi qatına həsrət çökmüş bu əsərlər rəssam yaşantılarına bələndiyindən hər biri nə qədər gözoxşayan olsa da, bir o qədər də düşündürücüdür. Onların çoxunda rəssam kolorit nikbinliyinə köklənsə də, motivindən asılı olmayaraq rəngin və cizginin "şəhər taleyi"nə münasibət də nisgil və ağrı hiss olunmaqdadır. Bəlkə də buna başlıca səbəb həmin rəngkarlıq və qrafika nümunələrinin Şuşanın işğalından sonra işlənməsidir. Bununla belə, hamımız kimi, həyatının "köçkünlük mərhələsi"ni qara saçlarına bəyaz "qəm yükü" hopdurmaqla keçirən rəssam, çox tezliklə geri dönəcəklərinə inamlıdır...



Rövşən Bayramov

Yaxşı haldır ki, Rövşən Bayramovun əsərlərində Şuşanın başqa rəssamların sənət nümunələrində gördüyümüz guşələrinə fərqli - özünəməxsus münasibət duyulmaqdadır. Bunun qabarıq görüntüsü müəllifin eyni tarixi məkana və yaxud memarlıq abidəsinə ilin müxtəlif fəsillərində baxışında, həmin yerlərin fərqli gözəllik işartılarını üzə çıxarmaq istəyidir. Təkcə məşhur Gövhər Ağa məscidinə bədii münasibəti xatırlatmaqla, rəssamın bu yöndəki axtarışlarının nə qədər məntiqli olduğuna əmin olmaq mümkündür.

Rəssamın başlıca yaradıcılıq kredosu mövcud olanların tarixi-bədii gözəlliyini yaşatmaq, onları gələcək nəsillərə ötürmək olduğundan yaradıcılıq üslubu əsasən real-gerçəkçidir. İnanırıq ki, sənətkarın ürək yanğısı ilə yaratdığı "Şuşada qış", "Xarı bülbül", "Cıdır düzü", "Şuşa ətrafı", "Gəncə qapısı", "Vaqifin türbəsi", "Şuşada küçə", "Gövhər Ağa məscidi", "Bulaq başında", "Yağışı gün", "Qədim eyvan", "Zöhrabbəyovların mülkü" və s. rəngkarlıq tablolarının rəng qatının hər parçasında müəllif qəlbinin həyəcana bələnmiş yaşantılarını hiss etmək mümkündür. Onun şərəfli tariximizə bələnmiş memarlıq tikililərimizə bu bədii yanaşmasında, həm onların yaradıcılarının, həm də sahiblərinin əməlinə böyük ehtiram duyulmaqdadır.

Qənaətimizcə, ruhları oyatmaq və coşdurmaq gücündə olan bu tabloların hər biri qədim şəhərin taleyinə biganə qala bilməyənlər üçün əvəzsiz "bədii silah"dır. Çox vaxt "Unutsaq- unudularıq" deyiminə tapınmaqla əlinə fırça alan, molbert qarşısındakı təkliyini hamının arzusunun ifadəsinə çevirməyi başlıca amalı hesab edən Rövşən Bayramovun Şuşa ünvanlı hər bir əsəri mənəvi-psixoloji tutumuna görə çox təsirlidirlər.

Rəssamın qrafik irsi də kifayət qədər zəngindir. Çox vaxt tuş-pero texnikasına müraciət edən Rövşən Bayramov ərsəyə gətirdiyi lövhələrdə daş tikililərin daşıdığı tarixiliyi və faktura səciyyəviliyini təsvirin inandırıcılığı ilə yanaşı, həm də estetik tutum qaynağına yönəldə bilmişdir. Onun müxtəlif illərdə çəkdiyi "Köhnə darvaza", "Küçə", "Misgər", "Qədim qablar", "Yol", "Qədim tikili", "Meydan", "Qala divarları", "Haray" və s. qrafik əsərlərində nümayiş olunan cizgi oynaqlığı sayəsində həmin süjet və motivlərə duyğulandırıcılıq bəxş olunmuşdur. Odur ki, belə sənət nümunələri yaddaşlara hopmaqla, həm də özünün alt qatında hifz olunan həsrət yükünü əyanilləşdirməkdə, tamaşaçısını düşündürməkdədir...







